# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏKİ-ZAQATALA İQTİSADİ REGİONUNDA KƏND ƏHALİSİNƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİNİN BƏZİ MƏSƏLƏLƏRİ
## (Qax inzibati rayonlarının nümunəsində)

**Daşqın Məhəmmədli**
*BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi*
*Dashqin.muhammedli@mail.ru*

***Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunda kənd əhalisinə kitabxana-informasiya xidmətinin təşkilinin bəzi məsələləri (Qax inzibati rayonlarının nümunəsində)***
***Xülasə:****Məqalədə Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunda kənd əhalisinə kitabxana-informasiya xidmətinin səciyyəvi xüsusiyyətləri şərh olunur, cari problemlər və onların həlli yolları, eləcə də gələcək perspektivlər ətrafındanəzəriümumiləşdirmə aparılır. İqtisadi regionun Qax inzibati rayonunun Mərkəzi Kitabxana Sisteminin kənd kitabxana filiallarının işi təhlilə cəlb edilərək, əldə edilən konkret elmi nəticələr ortaya qoyulur.*
***Some issues of library-information service organization for rural population in Shaki-Zagatala economic region of the Republic of Azerbaijan (On the example of Shaki and Gakh administrative districts)***
***Summary:*** *The article describes the characteristic features of the library-information service for the rural population in the Shaki-Zagatala economic region of the Republic of Azerbaijan, the current problems and their solutions, as well as theoretical summarization of the future prospects. The work of the rural libraries of the Central Library Systems ofGakh administrative district of the economic region is analyzed and concrete scientific findings are presented.*
***Некоторые вопросы организации библиотечно-информационной службы сельского населения в Шеки-Загатальском экономическом районе Азербайджанской Республики (На примере Шекинского и Гахского административных округов)***
***Резюме:*** *В статье описаны характерные особенности библиотечно-информационного обслуживания сельского населения в Шеки-Загатальском экономическом районе Азербайджанской Республики, актуальные проблемы и пути их решения, а также теоретическое обобщение будущих перспектив. Проанализирована работа сельских библиотек Центральных библиотечных систем Гахского административных районов экономического район и представлены конкретные научные выводы.*

***Açar sözlər:*** *İqtisadi region, Qax, kitabxana, informasiya xidməti, MKS, kənd əhalisi, kənd kitabxanası, oxucu, kitabxanaçı, sənəd, biblioqraf, kataloq*



***Ключевые слова:*** *Экономический район, Шеки, Гах, библиотека, информационная служба, СБС, сельское население, сельская библиотека, читатель, библиотекарь, документъ, библиограф, каталог.*
***Key words:*** *Economic region, Sheki, Gakh, library, information service, CLS, rural population, village library, reader, librarian, documentary, bibliographer, catalog.*

**Giriş.** Qloballaşan, daim yenilənən, inkişaf edən dünyada bütün sahələrdə yeniliklərin tətbiqi artıq müasir həyatımızda obyektiv zərurətə çevrilmişdir. Yaranan yeniliklər haqqında informasiyanın istifadəçilərə operativ çatdırılmasında kitabxanaların və informasiya orqanlarının mühüm əhəmiyyəti vardır. Bunu nəzərə alan dövlətimizin kitabxana işi sahəsində də özünəməxsus siyasəti vardır. Bu siyasətın mənbəyində ümummilli lider Heydər Əliyevin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir" kimi çox dəyərli kəlamı durur.

Dövlətin kitabxana siyasəti: cəmiyyətin inkişaf istiqamətindən doğan prinsipial və aktual, perspektiv məsələlər, fəaliyyət və təşkilat metodları, vasitələri və formaları və ixtısaslı kadr seçib yerləşdirməkdən ibarətdir. Kitabxana işi sahəsində dövlət siyasəti öz ideoloji, sosial və siyasi əhəmiyyətinə görə müstəsna əhəmiyyətə malikdir. Müasir şəraitdə kitabxana işi sahəsində dövlət siyasətini müəyyənləşdirərək respublikamızda baş verən bütün dəyişikliklərin inkişaf qanunauyğunluqlarını nəzərə almaq zəruridir. Kitabxana işində demokratik prinsiplər tədricən dərinləşir və möhkəmlənir. Respublikamızda ölkə miqyasında əhaliyə kitabxana xidmətinin təşkilinin, bütün kitabxana şəbəkələrinin ümumi qanunauyğunluqlarını müəyyənləşdirən dövlət siyasətinin formalaşması zəruri bir prosesdir. Kitabxana işinə dair dövlət siyasətinin formalaşması və onun vəzifələrinin müəyyənləşməsində Azərbaycan Respublikasının Konstitusiyası əsas qanunvericilik bazası rolunu oynayır. İnsanların mədəni sərvətlərdən istifadə etmək, həmçinin istədiyi məlumat əldə etmək hüquqları və azadlıqları Konstıtusiyanın 40 və 50-ci maddələrində geniş şərh edilmiş, kitabxanaların hüquqları təsbit olunmuş, onların qarşısında insanlara kitabxana və informasiya xidmətinin yüksək səviyyədə, maneəsiz, qüsursuz və vaxtında təşkil edilməsi vəzifəsi qoyulmuşdur[18, s.85].

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş hüquqi normaları həyata keçirmək üçün 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Kitabxana işihaqqında" Azərbaycan Respublikasının Qanununu qəbul edilmişdir. Bu Qanun ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətini müəyyən edir. Respublikamızda hazırda və yaxın gələcəkdə formalaşan kitabxana işi üzrə dövlət siyasəti, kitabxana işinə dair hazırlanan bütün qərarlar, dövlət sənədləri və sərəncamlar, kitabxana işinin inkişaf konsepsiyası və ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti bu qanuna əsaslanmalıdır. 29 dekabr 1998-ci ildə

Prezident Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmiş və 1999-cu il 12 mart tarixində Ümummilli lider Heydər Əliyev tərəfindən Qanunun tətbiq edilməsi barədə fərman imzalamış, qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanları müəyyənləşdirilmişdir. [2; 6; 7; 10 s,16-19]

Qeyd olunduğu kimi "Kitabxana işihaqqında" Azərbaycan Respublikasının Qanununda kitabxana işi sahəsində dövlətin vəzifələrindən birinin dəkitabxana işinin inkişafına dair Dövlət Proqramının hazırlanması və həyata keçirilməsi olduğu qeyd edilir və Azərbaycan Respublikası Prezidenti cənab İ.Əliyevin imzası ilə 2008-ci il 6 oktyabr tarixində "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" qəbul olunur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi" Dövlət Proqramının tələblərinə uyğun olaraq 2009-cu ildə Azərbaycan kitabxanalarının vəziyyətini öyrənmək üçün statistik müayinə aparır. Aparılan monitorinqin nəticələrinə görə Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanaların sayı 3812, onlardan 576-sışəhər yerlərində 3236-sı kənd yerlərində fəaliyyət göstərdiyi meydana çıxır. Həmin dövrdə kütləvi kitabxanaların informasiya resurslarının sayı isə35528523 nüsxə olduğu qeyd edilir [6;7;9].

"Dövlət Proqramı" başa çatdıqdan sonra isə kitabxanaların sayı2014-cü ildə 3291, onlardan 479-u şəhər yerlərində, 2812-si kənd yerlərində fəaliyyət göstərmişlər[178]. 2009-cu illə statistik müqayisə aparsaq 521 kitabxananın bağlandığını qeyd etmək olar. Onlardan 97-si şəhər yerlərində, 414-ü isə kənd yerlərində fəaliyyət göstərən kitabxanalar bağlanmışdır. [21 s,33]

**Əsas hissə.** 2014-cü ildə kitabxanaların fondu isə 33.2 milyon nüsxə, onlardan 16.3 mln. nüsxə şəhər yerlərində, 16.9 mln nüsxə kənd yerlərində fəaliyyət göstərmişdir. 2009-cu illə müqayisə etsək kitabxana fondunda 2.4 milyon nüsxə azalma müşahidə olunduğunu söyləmək olar. Onlardan 0.7 mln. nüsxə şəhər yerlərində, 1.6 mln. nüsxə kənd yerlərində fəaliyyət göstərən kitabxanaların fondundan çıxarılmışdır.

2015-ci ildə həmin sistemə daxil olan kitabxanaların sayı 3242,onlardan 462-si şəhər yerlərində, 2780 kitabxana isə kənd yerlərində fəaliyyət göstərmişdir [178]. 2014-cü illə müqayisədə 49 kitabxana azalmışdır. Onlardan 17 kitabxana şəhər yerlərində, 32 kitabxana kənd yerlərində bağlanmışdır.

Həmin kitabxanaların kitab fondu 32.6 milyon nüsxə, 16.1 mln. nüsxə şəhər yerlərində, 16.5 mln. nüsxə kənd yerlərində fəaliyyət göstərmişdir. 2014-cü illə müqayisədə 0.2 mln. nüsxə şəhər yerlərində, 0.4 mln. nüsxə kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda fondun azalması müşaiyət olunmuşdur[8, s.35].

2016-ci ildə həmin sistemə daxil olan kitabxanaların sayı 3088,onlardan 453-si şəhər yerlərində, 2635 kitabxana isə kənd yerlərində fəaliyyət göstərmişdir. 2015-ci illə müqayisədə 154 kitabxana bağlanmışdır. Onlardan 9-u şəhər yerlərində,145-i kənd yerlərində fəaliyyət göstərən kitabxanalar olmuşdur.



Həmin kitabxanaların kitab fondu 32.5 milyon nüsxə, onlardan 16.1 mln. nüsxə şəhər yerlərində, 16.4 mln. nüsxə kənd yerlərindəfəaliyyətgöstərən kitabxanaların fondunda olmuşdur. 2015-ci illə müqayisə etsək 0.1 mln. nüsxə şəhər yerlərində, 0.1 mln. nüsxə kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda azalma müşahidə olmuşdur[26, s.83].

2008-ci ildən 2016-ci ilə qədər Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan 724 kitabxana ləğv olunmuş, onlardan 123-ü şəhər yerlərində, 601 kitabxana kənd yerlərində bağlanmışdır.

2008-ci ildə kütləvi kitabxanaların fondu 35528523 mln. nüsxə, 2016-cı ildə isə bu rəqəm 32469700 mln. nüsxə olmuşdur. 30588230 nüsxə ədəbiyyat ləğv olunmuş, fondlardan çıxarılmışdır[7, s.303].

2008-ci ildən 2016-cı illər arasında bağlanan kitabxanalar

| **İllər** | **Kütləvi kitabxanaları sayı** | **Şəhər yerlərində** | **Kənd yerlərində** | **Bağlanan kitabxanalar** | | |
|---|---|---|---|---|---|---|
| | | | | **Cəmi** | **Şəhər yerlərundə** | **Kənd yerlərində** |
| 2009 | 3812 | 576 | 3236 | | | |
| 2014 | 3291 | 479 | 2812 | 521 | 97 | 414 |
| 2015 | 3242 | 462 | 2780 | 49 | 17 | 32 |
| 2016 | 3088 | 453 | 2635 | 154 | 9 | 145 |
| Cəmi | | | | 724 | 123 | 601 |

Əhalinin hər 1000 nəfərinə düşən kitab və jurnalların sayına gəldikdə isə 2014-cü ildə 3501 nüsxə, onlardan 3241 nüsxə şəhər yerlərində, 3796 nüsxə isə kənd yerlərində yaşayan əhalinin tələbatını ödəmişdir. Bir oxucuya verilən kitab və jurnallara gəldikdə isə həmin il həm şəhər və həm də kənd yerlərində14 nüsxə olmuşdur.

2015-ci ildə isə əhalinin hər 1000 nəfərinə düşən kitab və jurnalların sayı3403 nüsxə, onlardan 3129 nüsxə şəhər yerlərində, 3622 nüsxə isə kənd yerlərində yaşayan əhalinin tələbatını ödəmişdir. Bir oxucuya verilən kitab və jurnallara gəldikdə isə 2015-ci ildəhəm şəhər və həm də kənd yerlərində14 nüsxə olmuşdur[27, s.19].

2016-ci ildə isə əhalinin hər 1000 nəfərinə düşən kitab və jurnalların sayı3351 nüsxə, onlardan 3101 nüsxə şəhər yerlərində, 3545 nüsxə isə kənd yerlərində yaşayan əhalinin tələbatını ödəmişdir. Bir oxucuya verilən kitab və jurnallara gəldikdə isə həmin ilşəhəryerlərində 13 nüsxə, kənd yerlərində15 nüsxə olmuşdur[8, s.88].

Respublika kitabxanalarında işçilərin sayına gəldikdə isə "Dövlət Proqramı"qəbul edilənə qədər bu rəqəm 8727 nəfər, onlardan 4598 nəfər şəhər yerlərində, 4129 nəfəri isə kənd yerlərində çalışmışlar.

"Dövlət Proqramı" başa çatdıqdan sonra isə, yəni 2014-cü ildə bu rəqəm 8397 nəfər, onlardan 3748 nəfəri şəhər yerlərində, 4649 nəfəri kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda çalışmışlar. Rəqəmlərdən göründüyü kimi

2014-cü ildə ştatda olan işçilərin sayında 330 nəfər, şəhər yerlərində çalışan kitabxanaçılar arasında 850 nəfərazalma, kənd yerlərində çalışan kitabxanaçılar arasında isə 520 nəfər artma müəyyən olunmuşdur.

2015-ci ildə isə kitabxanalarda işçilərin sayı 8524 nəfər, onlardan 3836 nəfəri şəhər yerlərində, 4688 nəfəri kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda çalışmışlar. Statistik rəqəmlərdən göründüyü kimi 2015-ci ildə ştatda olan işçilərin sayında 127 nəfər artma müşahidə olunmuş, şəhər yerlərində çalışan kitabxanaçılar arasında 88 nəfərartma, kənd yerlərində çalışan kitabxanaçılar arasında isə 39 nəfərartma müəyyən olunmuşdur[19 s,16-19].

2016-ci ildə isəkitabxanalarda işçilərin sayı 8369 nəfər, onlardan 3802 nəfəri şəhər yerlərində, 4567 nəfəri kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda çalışmışlar. Statistik rəqəmlərdən göründüyü kimi 2016-ci ildə ştatda olan işçilərin sayında 255 nəfər azalma müşahidə olunmuş, şəhər yerlərində çalışan kitabxanaçılar arasında 34 nəfərazalma, kənd yerlərində çalışan kitabxanaçılar arasında isə 121nəfərazalma müəyyən olunmuşdur. Bu da həmin ildə 154 kitabxananın bağlanması ilə əlaqədar olmuşdur. Ümumiyyətlə 2008-2016-cı illərarasında 358 nəfərkitabxanaçıişdən çıxarılmışdır.

2008-ci ildən 2016-cı illər arasındakadr korpusu

| İllər | Kütləvi kitab-xana-larda işçilərin sayı | Şəhər yerlərində | Kənd yerlərində | İşdən çıxarılanişçilərin sayı | | |
|---|---|---|---|---|---|---|
| | | | | Cəmi | Şəhər yerlərundə | Kənd yerlərində |
| 2009 | 8727 | 4598 | 4129 | | | |
| 2014 | 8397 | 3748 | 4649 | 330 | 850 azal | 520 art |
| 2015 | 8524 | 3836 | 4680 | 127 | 88 | 39 |
| 2016 | 8369 | 3802 | 4567 | 255 | 34 | 121 |
| Cəmi | | | | 358 nəfər işdən çıxarılmışdır | | |

2014-cü ildə kütləvi kitabxanalarda oxucuların sayı 2.7 mln nəfər, onlardan 1.5 mln nəfər şəhər yerlərində, 1.2 mln. nəfər kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda olmuşdur. 2014-cü il ərzində oxuculara verilmiş kitab və jurnalların sayı 37.2 mln. nüsxə, onlardan 20.0 mln. nüsxə şəhər yerlərində, 17.2 mln. nüsxə kənd yerlərində fəaliyyət göstərən kitabxanalardan verilmişdir.

2015-ci ildə isə kütləvi kitabxanalarda oxucuların sayı 2.6 mln nəfər, onlardan 1.5 mln nəfər şəhər yerlərində, 1.1 mln. nəfər kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda olmuşdur. 2015-cüil ərzində oxuculara verilmiş kitab və jurnalların sayı 36.2 mln. nüsxə, onlardan 19.2 mln. nüsxə şəhər yerlərində,17.0 mln. nüsxə kənd yerlərində fəaliyyət göstərən kitabxanalardan verilmişdir [23, s.69].



2016-cı ildə isə kütləvi kitabxanalarda oxucuların sayı 2.6 mln nəfər, onlardan 1.4 mln nəfər şəhər yerlərində, 1.2 mln. nəfər kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda olmu°dur. 2016-cüil ərzində oxuculara verilmiş kitab və jurnalların sayı 35.1 mln. nüsxə, onlardan 18.5 mln. nüsxə şəhər yerlərində, 16.6 mln. nüsxə kənd yerlərində fəaliyyət göstərən kitabxanalardan verilmişdir. Təbii ki, həmin illərdə oxucuların sayında və kitab verilişində də azalmalar müşahidə olunmuşdur.

Dövlət Statistika Komitəsinin araşdırmalarına görə əsaslı təmirə ehtiyacı olan kitabxanalar 2014-cü ildə 1237, ümumi kitabxanaların 38.2%-i, onlardan 141-i, 33.2%-i şəhər yerlərində yerləşmiş, 1096-i, 38.9%-i kənd yerlərində yerləşmişdir.

2014-cüildə qəza vəziyyətində olan kitabxanaların sayı 72, kitabxanaların ümumi sayına görə 2.2%-i, onlardan 1-i, 0.2%-işəhər yerlərində yerləşmiş, 71-i 2.5%-i kənd yerlərində yerləşmişdir.

2015-ci ildə əsaslı təmirə ehtiyacı olan kitabxanalar 1008, ümumi kitabxanaların 34.0%-i, onlardan 111-i, 29.1%-i şəhər yerlərində yerləşmiş, 897-i, 34.7% kənd yerlərində yerləşmişdir.

2015-ci ildə qəza vəziyyətində olan kitabxanaların sayı 53, kitabxanaların ümumi sayına görə 1.8% olmuş, onlardan 9-u, 2.4 %-i şəhər yerlərində, 44-u, 1.7%kənd yerlərində yerləşmişdir [8, s.28].

2016-ci ildə əsaslı təmirə ehtiyacı olan kitabxanalar 1107, ümumi kitabxanaların 36.4%-i, onlardan 238-i, 58.5%-i şəhər yerlərində yerləşmiş, 869-u,33.0% kənd yerlərində yerləşmişdir.

2016-ci ildə qəza vəziyyətində olan kitabxanaların sayı 58, kitabxanaların ümumi sayına görə 1.9% olmuş, onlardan 14-ü, 3.4 %-i şəhər yerlərində, 44-u,1.7%kənd yerlərində yerləşmişdir. cədvəl qurmaq

Tədqiqat apardığımız region üzrə 2015-ci ilin məlumatına görə 251 kütləvi kitabxana mövcud olmuşdur. Onların fondu isə 1749.6 mln nüsxə olmuşdur.

2016-cı ildə Şəki-Zaqatala iqtisadi regionu üzrəkütləvi kitabxanaların sayı 243, onların fondu 1716.0 min nüsxə olmuşdur. 2015-ci illə müqayisədə 8 kitabxana bağlanmış, bir il müddətində 35 minə qədərədəbiyyat ləğv olunmuşdur [22, s.99].

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 29 mart 2016-cı il tarixli sərəncamına uyğun olaraq Şəki Regional Mədəniyyət və Turizm İdarəsi yaradılmış və regionda yerləşən kitabxanalar bu mərkəzətabe edilmişdir.

Azərbaycan Respublikasının Qax rayonunda əhalinin sayı 2015-ci ilin məlumatına görə 55644 nəfərdir. [25 s,93]

2017-ci il yanvar ayından Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 29 mart 2016-cı il tarixli sərəncamına uyğun olaraq

Qax rayon MKS-i Şəki Regional Mədəniyyət və Turizm İdarəsinin tərkibində fəaliyyətini davam etdirir.

Azərbaycan Respublikasının Qax rayonunda əhalinin sayı 2015-ci ilin məlumatına görə 55644 nəfərdir.

2017-ci il yanvar ayından Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 29 mart 2016-cı il tarixli sərəncamına uyğun olaraq Qax rayon MKS-i Şəki Regional Mədəniyyət və Turizm İdarəsinin tərkibində fəaliyyətini davam etdirir.

Yuxarıda qeyd olunduğu kimi 2009-cu ildə Dövlət Statistika Komitəsinin apardığı statistik müayinənun nəticələrinə görə Qax rayonunda 115 kitabxana olmuş, onlardan 64-ü Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərmişdir.

2015-ci ilin məlumatına görə kütləvi kitabxanaların sayı 48-ə enmiş, yəni 16 kitabxana bağlanmışdır[17]. Cəmi kitab fondu 2009-cu ildə 656292 nüsxə, 2015-ci ildə isə 315530 nüsxə olmuşdur. Yəni 340762 nüsxə ədəbiyyat, 52.0% ədəbiyyat fonddan çıxarılaraq məhv edilmişdir. Buna heç nə ilə haqq qazandırmaq olmaz.

2016-cı ilin məlumatına görə isə rayonda 47 kitabxana mövcud olmuş, cəmi kitab fondu 308.8 nüsxəyə düşmüş, 2015-ci illə müqayisədə 6730 adda ədəbiyyat fonddan çıxarılmışdır. Kitabxanada latın əlifbası ilə 74530 nüsxə, kiril əlifbası ilə 177800 nüsxə, digər dillərdə 63200 nüsxə, elektron nəşr 440 nüsxə, fonda daxil olan ədəbiyyat 1200 nüsxə, çıxarılan ədəbiyyat 7830 nüsxə, kompüterlərin sayı 29, oxucuların sayı 25850 nəfər, kitabxanaya gəliş 127344 nəfər, kitab verilişi 465000 nüsxə olmuşdur.

Qax rayon MKS-də çalışan işçilərin sayı 146 nəfər, ali təhsillilərin sayı 13 nəfər, ali-ixtisas təhsillilər 11 nəfər, orta-ixtisas təhsillilər 118 nəfər, ümum orta təhsillilər 15 nəfərdir.

Azərbaycan Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayevin 09 yanvar 2014-cü il tarixli 2 №-li əmrinə əsasən Qax MKS-in C.Cabbarlı adına Mərkəzi kitabxanası "İlin Mərkəzi Kitabxanası" nominasiyası üzrə "İlin kitabxanası" baxış müsabiqəsinin qalibi olmuşdir.

Qax MKS-nin fondunda 4 dildə-azərbaycan, rus, gürcü və ingilis dilində ədəbiyyat vardır. Qax MKS-i 2003, 2005, 2007-ci illərdə ABŞ-nın Azərbaycanda fəaliyyət göstərən Səfirliyi tərəfindən kitabxana layihələrində iştirak etmişdir. 2005-2008-ci illərdə Regional Kitabxanaların İnkişafı Proqramı çərçivəsində Mərkəzi kitabxanada Regional Kitabxana Məlumat Mərkəzi fəaliyyət göstərmişdir. Bu zaman kitabxana işçiləri, həmçinin oxucular kompüter kursları keçmiş və kompüterdə işləməyi öyrənmişlər. Qax rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 01.27.2010-cu iltarixdənBeynəlxalq Assossasiya ЭБНИТ (ELNİT)-in üzvüdür.

Son məlumata görə isə əsası 1906-cı ildə "Qiraət koması" şəklində qoyulmuş Qax MKS-in tərkibinə 33 kitabxana-C.Cabbarlı adına Mərkəzi kitabxana və kənd kitabxana filialları daxildir. Mərkəzi kitabxana digər kənd kitabxana filialları üçün metodik mərkəz rolunu oynayır.



1 saylı Şəhər kitabxanası, 2.Sarıbaş kənd kitabxana filialı, 3.İlisu kənd kitabxana filialı, 4.Ağçay kənd kitabxana filialı, 5.2saylı Şəhər kitabxanası, 6.Qaxingiloy kənd kitabxana filialı, 7.Qum kənd kitabxana filialı, 8. Ləkit kənd kitabxana filialı, 9.Zərnə kənd kitabxana filialı, 10.Güllük kənd kitabxana filialı, 11.Turaclı kənd kitabxana filialı, 12.Marsan kənd kitabxana filialı, 13.Tasmalı kənd kitabxana filialı, 14.Zəyəm kənd kitabxana filialı, 15.Almalı kənd kitabxana filialı, 16.Cəlayer kənd kitabxana filialı, 17.Qıpçaq kənd kitabxana filialı, 18.Baydarlı kənd kitabxana filialı, 19.Ağyazı kənd kitabxana filialı, 20.İbaxlı kənd kitabxana filialı, 21.Əlibəyli kənd kitabxana filialı, 22.Qaratala kənd kitabxana filialı, 23.Qaşqaçay kənd kitabxana filialı, 24.Armudlu kənd kitabxana filialı, 25.Əmbərçay kənd kitabxana filialı, 26.Əmircan kənd kitabxana filialı, 27.Avtobaza kənd kitabxana filialı, 28.Kollec kitabxana filialı, 29.Toppaq kənd kitabxana filialı, 30.Qaxbaş kənd kitabxana filialı, 31.Şıxlar kənd kitabxana filialı, 32.Ləkit Malax kənd kitabxana filialı.[31]

C.Cabbarlı adına Qax rayon Mərkəzi Kitabxanası Qax şəhəri Azərbaycan prospekti 30 ünvanında, 2 mərtəbəli binada yerləşir. Bina kitabxana üçün tikilmişdir.Mərkəzi Kitabxanada 44 nəfər işçi çalışır ki, bunların 7 nəfər ali-ixtisas təhsilli, 3 nəfər ali-qeyri ixtisas təhsilli, 22 nəfər otra-ixtisas təhsilli, 6 nəfər orta-qeyri ixtisas təhsilli, 1 nəfər tam orta təhsillidir.

Mərkəzi Kitabxanada aşağıdakı şöbələr fəaliyyət göstərir: Komplektləşdirmə və kitabişləmə şöbəsi; Metodika və biblioqrafiya şöbəsi; Xidmət şöbəsi; Uşaq şöbəsi; Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi; İnformasiya-resurs şöbəsi.[31]

Komplektləşdirmə və kitabişləmə şöbəsinin 4 nəfər işçisi vardır. Onlardan 2 nəfər orta-ixtisas, 1 nəfər orta qeyri ixtisas, 1 nəfər tam orta təhsillidir. Şöbə müdiri Əzizova İradə orta-ixtisas təhsillidir. Şöbədə 2 ədəd İnternetə çıxışı olan kompüter və 1 ədəd printer vardır. Şöbəyə kitablar Kitabxana Kollektoru, Milli Kitabxana, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, AMEA, ayrı-ayrı müəlliflərdən daxil olur. 2016-cı ildə kitabxanaya 1245 nüsxə ədəbiyyat daxil olmuşdur. Bunlardan 1226 nüsxə latın qrafikası ilə, 18 nüsxəsi rus dilində, 1 nüsxəsi xarici dildədir.

Şöbədə İnventar kitabı və ümumi uçot kitabı vardır. Baş əlifba kataloqu tərtib olunmuşdur.

Metodika və biblioqrafiya şöbəsinin 5 nəfər işçisi vardır. Onlardan 1 nəfəri biblioqraf, 3 nəfər metodistdir. Şöbə müdiri Xəlilova Reyhan ali-ixtisas təhsillidir. Şöbədə hər il mütəmadi olaraq əlamətdar və tarixi günlərlə bağlı icmallar, məruzələr tərtib edilir, mövzu üzrə metodik məktublar hazırlanaraq filiallara göndərilir. Lakin biblioqrafik göstəricilər tərtib olunmur. Şöbədə metodistin qeydiyyat dəftəri vardır. Filiallara gedişlər, verilən tövsiyyələr dəftərdə qeyd olunur. Filiallar barədə qovluqlar yaradılıb. İllik, aylıq və rüblük iş planı

vardır. Şöbə tərəfindən "Diyarşünaslıq" kartotekası və mövzu kartotekaları, şəxsi kartotekalar tərtib olunmuşdur. Kartotekalarda rəsmi dövlət qəzetlərində və yerli mətbuat orqanı olan "Şəlalə" qəzetində çıxan məqalələr təsvir olunaraq bölmələr üzrə yerləşdirilir. MKS-in işçiləri haqqında ayrıca qovluq yaradılıb ki, burada işçilər haqqında informasiyanı əks etdirən məlumat vərəqləri toplanıb. Şöbədə hər ayın 3-də seminar-müşavirə, hər ayın 16-da metodiki məşğələlər keçirilir. Şöbədə ödənilmiş arayışlar məlumat bazası yaradılmışdır. Burada kitabxana tərəfindən ödənilən arayışların qeydiyyatı aparılır.

Uşaq şöbəsiQax şəhəri Heydər Əliyev prospektində yerləşir. Şöbə 5 otaqdan ibarətdir. Şöbənin 6 nəfər işçisivardır. Onlardan 1 nəfəri ali təhsilli, 3 nəfəri orta ixtisas təhsilli, 1 nəfərorta qeyri ixtisas təhsillidir. Şöbə müdiri Babayeva Rüxsarə orta ixtisas təhsillidir.

Şöbənin ümumi kitab fondu 10127 nüsxə, latın qrafikası ilə 1708 nüsxə, kiril qrafikası ilə 4080 nüsxə, rus dilində 3800 nüsxə, gürcü dilində 650 nüsxə, ingilis dilində 8 nüsxə, CD 48 nüsxə, 2015-ci ildə oxucunun sayı 2000 nəfər, kitab verilişi 23000 nəfər, kitabxanaya gəliş isə 10668 nəfər olmuşdur. [10 s,18]

2016-cı ildə oxucu sayı 1500, kitab verilişi 17612 nüsxə, gəliş 15257 nəfər təşkil edir. 2016-cı ildə 167 nüsxə yeni kitab alınmışdır. Şöbə əməkdaşları hər gün dörüləcək işlərin gündəliyini tərtib edirlər. Şöbədə oxucu sorğularının qeydiyyatı aparılır, nömrə dəftəri, metodistin qeydiyyat dəftəri, illik, aylıq iş planları vardır. Kitab fondu KBT-ilə düzülmüşdür. Kataloqun tərtibində nöqsanlar vardır. Belə ki, kataloqda latın, kiril qrafikalı, həmçinin, rus dilində olan kartoçkalar birgə yığılmışdır. Uşaq şöbəsində "Nağıl otağı" yaradılmışdır. Burada azyaşlı oxucuların marağına səbəb olacaq əl işləri, rəsm əsərləri nümayiş olunur. "Nağıl otağı"nıntərtibatı vəziyyəti qənaətbəxşdir. Şöbədə "Turizm guşəsi", "Uşaq hüquqları guşəsi", "Qarabağımız" guşələri yaradılmışdır. Şöbədə 2 ədəd kompüter, 1 ədəd printer, telefon vardır.

Xidmət şöbəsinin 5 nəfər işçisi vardır. İşçilərin hamısı orta ixtisas təhsillidir.Müdir Abdullayeva Sevda orta ixtisas təhsillidir. 2015-ci il üçün şöbənin ümumi kitab fondu 38210 nüsxə, latın qrafikası ilə 6926 nüsxə, kiril qrafikası ilə 9715 nüsxə, rus dilində 8209 nüsxə, gürcü dilində 802 nüsxə, ingilis dilində 38 nüsxə, CD 105 nüsxə, oxucu sayı 3000 nəfər, kitab verilişi isə 40000 nüsxə, gəliş 34919 nəfər olmuşdur.

2016-cı ildə oxucu sayı 2118 nəfər, gəliş 6750 nəfər, kitab verilişi 20898 nüxə təşkil edir. İnternetə qoşulmuş 4 ədəd kompüter, 1 ədəd printer var. Şöbənin sistemli və əlifba kataloqu vardır. Fondda ədəbiyyat sistemli qaydada düzülmüşdür. İllik, aylıq, rüblük iş planları, statistik hesabat hazırlanır. Keçirilən tədbirlərin sənədləri var, foto-şəkilləri kitabxananın veb-səhifəsində **(gakh.cls.az)** yerləşdirilir.

Qax rayon Mərkəzi Kitabxanasında ALİSA proqramında 20 oxucu yeni oxucu modulundan, 31 nəfər isə **gakh.cls.az** saytının qeydiyyat bölməsindən (vebdən) qeydiyyatdan keçmişdir. Veriliş və sifariş modullarından hələlik istifadə olunmur.



Oxu zalı bölməsininmüdiri Mirzəyeva Laləali qeyri ixtisas təhsillidir. Oxu zalı 120 nəfərlikdir. Kitab fondu (yardımçı) 4012 nüsxə, latın qrafikası ilə 8734 nüsxə, kiril qrafikası ilə 21843 nüsxə, rus dilində 8338 nüsxə, gürcü dilində 802 nüsxə, ingilis dilində 405 nüsxədən ibarətdir. 2016-cı il üçünoxucu sayı 241 nəfər, gəliş 2459 nəfər, kitab verişi isə 2506 nüsxə təşkil edir.

"Azərbaycan", "Mədəniyyət", "Azad Azərbaycan", "Xalq qəzeti", "Şəlalə" (yerli qəzet), "Mədəniyyət.az", "Sehrli dünya" və s. qəzet və jurnallar alınır. Alınan dövrü mətbuatın qeydiyyatı aparılır, qəzetlər kitabxana qaydası ilə tikilərək 5 il müddətində saxlanılır.

"Mədəni irsimizin keşiyində" (foto stend), "Heydər Əliyev-Azərbaycan mədəniyyətinin hamisi", "Müdrik rəhbərin layiqli davamçısı" (İlham Əliyevə həsr olunub, foto-stend), "Bura Vətəndir", "Yaddan çıxmaz Qarabağ", "Qax yazarları", "Qax-Azərbaycanın milli mətbəxt paytaxtıdır", "Kitabi Dədə Qorqud-xalqın söz abidəsi", "Tarixin amansız faciəsi-Xocalı soyqırımı", "Sənə arxalanırıq Azərbaycan ordusu" və s. kitab sərgiləri və foto stendlər tərtib olunub. Həmçinin şöbədə yubileylər, əlamətdar tarixi günlərə həsr olunmuş "Məlumat guşəsi" də yaradılıb.

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması söbəsi 2012-ci ildə yaradılmışdır. 3 nəfər işçisi var.Onlardan 1 nəfəri ali-ixtisas, 1 nəfəri orta-ixtisas, 1 nəfəriorta qeyri-ixtisas təhsillidir. Şöbə müdiri Məhyəddinova Aytən orta ixtisas təhsillidir. [31]

2015-ci ildən şöbə ALİSA proqramı ilə işləməyə başlamışdır. Lakin proqramda müəyyən çətinliklərin meydana çıxması səbəbiylə hazırda ALİSA proqramında iş aparılmır. Çətinliklərlə bağlı ULTRA şirkətinə dəfələrlə müraciət olunsa da suallarına tam şəkildə cavab ala bilmirlər. Həmçinin İRBİS proqramında yaratdıqları məlumat bazaları da ULTRA şirkəti tərəfindən ALİSA proqramına köçürülməmişdir. Bu da onların proqramda işlənməsinə manеələr törədir. Hazırda şöbədə iş İRBİS proqramında aparılır.

İnformasiya-resurs şöbəsinin 3 nəfər işçisi var. Şöbə müdiri İbrahimova Əsli orta ixtisas təhsillidir. Şöbə 2012-ci ildə yaranmışdır. Şöbə kitabxananın saytının idarə olunması, saytın operativ yeniləşməsi, əlavə və dəyişiklərin edilməsi, domen və hostinqin fəaliyyətinə nəzarət edir, şəbəkənin antivirus proqramının, habelə, lokal və İnternet şəbəkəsinin fəaliyyətini təşkil edir. İnternet vasitəsilə virtual xidmət olunur. MKS 2015-ci ildən Vahid Mərkəzləşdirilmiş Kitabxana Portalına qoşulub. MKS-nin saytı **"gakh.cls.az"**-dır. Saytda aşağıdakı məlumat bazaları yerləşdirilib: "Muzeylərimiz" burada Heydər Əliyev Muzeyi, Qax rayon Tarix-Diyarşünaslıq Muzeyi, İ.Dağıstanlının ev muzeyi və s. haqqında, "Abidələrimiz" məlumat bazasında Qax rayonunda yerləşən qədim tarixi abidələr (Cinli qala, Həsən xan qalası, Qala bürcü) haqqında, "Mətbəximiz" məlumat bazasında isə rayonun özünəməxsus mətbəxi haqqında məlumatlar yerləşdirilib. "Kitabxana" məlumat bazasında Qax rayon MKS-i haqqında, "Qaxın görkəmli şəxsiyyətləri" məlumat bazasında Qaxda doğulub boya-başa çatan görkəmli Qaxlılar haqqında, "Xaricdə yaşayan tanınmış azər-

baycanlılar" məlumat bazasında xaricdə yaşayan Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında (Lütfi Zadə, Banin-Ümmülbanu Əsədullayeva və d.) dolğun məlumatlar verilmişdir.

"Qarabağ-Qan yaddaşımız", "Azərbaycanlıların soyqırımı günü", "Qax şəhidləri" məlumat bazalarında isə Qarabağın tarixi, 31 mart Azərbaycanlıların soyqırımı haqqında məlumatlar və Qax rayonunun şəhidlərinin siyahısı hazırlanmışdır.

"Sənədlər" məlumat bazasında "Mədəniyyət haqqında qanun", "Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında Əsasnamə", "Kitabxana işi haqqında"Qanun, "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası", "Multikulturalizm ili", həmçinin "Azərbaycan-multikulturalizm və tolerantlığa nümunə ölkə", "Qaxlı yazar Qalibə İlisulunun əsərlərindən ibarət biblioqrafik məlumat" və s. metodik vəsaitlərin elektron versiyaları yerləşdirilib. [10 s,17]

"Yeni kitablar" məlumat bazasında kitabxanaya daxil olan yeni kitabların, "Ən çox oxunanlar" məlumat bazasında isə oxucular tərəfindən daha çox oxunulan kitabların elektron versiyaları yerləşdirilib. Bununla yanaşı kitabxananın veb saytında "Xəbərlər", "Tədbirlər", "Elanlar" bazaları yerləşdirilib ki, burada da kitabxanada keçirilən tədbirlər haqqında ətraflı məlumat verilir.

Nümunə üçün bəzi filiallarda kitabxana-informasiya fəaliyyəti ilə tanış olaq.

3 saylı İlisu kənd kitabxana filialı Qax rayon Mədəniyyət və Turizm Şöbəsinin balansındadır. Təxmini 5000-dən çox əhaliyə xidmət göstərilir. Filialın1 nəfəri orta ixtisas, 1 nəfəri qeyri orta ixtisas olmaqla iki nəfər işçisi var. Müdir Rəhimova Güllü orta ixtisas təhsillidir.

Kitab fondu 9259 nüsxədir. Onlardan latın əlifbası ilə 2325 nüsxə, kiril əlifbası ilə 5883 nüsxə, rus dilində 1045 nüsxə, CD 22 nüsxədir. 2015-ci ildə oxucu sayı 705 nəfər, kitab verilişi 14998 nüsxə, gəliş isə 5511 nəfər olmuşdur.

2016-cı ildə oxucuların sayı 563, gəliş 3590, kitab verilişi isə 11118 nüsxə təşkil etmişdir. Filialda 1 ədəd kompüter və 1 ədəd printer var, İnternet və telefon yoxdur. Metodistin qeyd dəftəri, vahid oxucu nömrə dəftəri var, lakin oxucu sorğularının qeydiyyatı aparılmır. İllik, rüblük iş planları, statistik hesabat, həmçinin keçirilən tədbirlərin sənəd və foto-şəkilləri var. Ümumi kitab fondu KBT-yə uyğun yığılıb. Sistemli katoloq tərtib olunmuşdur. Katoloqun tərtibatı qənaətbəxş deyildir. Kartotekalar yoxdur.[24 s,81]

Filialın Facebook sosial şəbəkəsində **"İlisu kitabxanası"** adlı səhifəsi var. Şəbəkədə mütamadi olaraq virtual kitab müzakirələri keçirilir. Həmçinin İlusuda yerləşən istirahət mərkəzlərində, otellərdə tez-tez kitab sərgiləri təşkil olunur.

"Azərbaycanın dərdi-Qarabağ", "2016-cı il-Multikulturalizm ilidir", "Tarixə yazılmış ölməzlik" (şəhidlərə həsr olunub) "Yeni kitablar", "İlisu yazarları", "İlisu kəndi turizmin mərkəzidir" adlı kitab sərgiləri, "Kitabları sevək, sevdirək", "Kəndimizin yetirmələri" adlı foto-stend var. Kitabxana "Mədəniyyət", "Şəlalə" (yerli qəzet) və Mədəniyyət.az jurnalı alınır.



7 saylı Qum kənd kitabxana filialı Qax rayon Mədəniyyət və Turizm Şöbəsinin balansındadır. 1 otaqdan ibarətdir. 1 ədəd kompüter və 1 ədəd printer, telefon var, İnternet yoxdur. Orta ixtisas təhsilli bir nəfər işçisi vardır. Müdir Rəcəbova Səriyyə orta ixtisas təhsillidir.

Kitab fondu 9600 nüsxədir. Onlardan latın lifbası ilə 2300 nüsxə, kiril əlifbası ilə 6800 nüsxə, rus dilində 553 nüsxə, xarici dildə 14 nüsxə, CD 21 ədəddir. Kitabxananın oxucularınınsayı 2015-ci ildə 710 nəfər, kitabxanaya gəliş 6000 nəfər, kitab verilişi 14000 nüsxə olmuşdur.

2016-cı ildə filialın oxucu sayı 490, gəliş 3695, veriliş isə 8110 nüsxə olmuşdur. Filialda illik və aylıq iş planları, keçirilən tədbirlərin sənəd və foto-şəkilləri, metodistin qeyd dəftəri vardır. Lakin oxucu sorğularının qeydiyyatı dəftəri yoxdur. Gündəlik qaydasındadır. Kataloqda (sistemli), həmçinin, ümumi kitab fondunun düzülüşündə daxili əlifba qaydasına tam əməl olunmayıb, kartoteka yoxdur. [21, s.22]

Filialın Facebook sosial şəbəkəsində **"Qum kitabxanası"** adlı səhifəsi vardır. "Heydər adlı Günəş sönməz" (Heydər Əliyevə həsr olunub, fotostend), "Müdrik rəhbərin layiqli davamçısı" (İlham Əliyevə həsr olunub, fotostend), "Qum yurd yerimiz", "Odlar yurdu Azərbaycan", "Nizaminin ruhu gəzir bu kənddə" (Nizami Gəncəviyə həsr olunub), "Kəndimizin şəhidləri" adlı kitab sərgiləri var. Mədəniyyət, "Şəlalə" (yerli qəzet) və Mədəniyyət.az jurnalı alınır.

35 saylı Əlibəyli kənd kitabxana filialı Qax rayon Əlibəyli kənd icra nümayəndəliyinin balansındadır. 1 otaqdan ibarətdir. 1 ədəd kompüter və 1 ədəd printer var, İnternet və telefon yoxdur. Təxmini 2000-dən çox əhaliyə xidmət göstərilir. Filialın 1 nəfəri ali ixtisas, 1 nəfəri orta ixtisas təhsili olan iki nəfər işçisi vardır. Müdir Rasunaşvili Mziuri orta ixtisas təhsillidir.

Kitab fondu 7800 nüsxədir. Onlardan latın əlifbası ilə 1735 nüsxə, kiril əlifbası ilə 790 nüsxə, rus dilində 828 nüsxə, gürcü dilində 4552 nüsxə, CD 13 ədəddir. Kitabxananın oxucularının sayı 2015-ci ilin məlumatına görə 750 nəfər, kitab verilişi 14000 nüsxə, kitabxanaya gəliş 4700 nəfər olmuşdur. 2016-ci ilin məlumatına görə oxucu sayı 531nəfər, kitabxanaya gəliş 3120, kitab verilişi 11060 nüsxə təşkil edir.

Kitab fondunun düzülüşündə nöqsanlar var idi, fondda formulyarsız kitablara rast gəldik. Oxucu sorğularının qeydiyyatı aparılmır. Kartoteka sistemi yoxdur, kataloq (sistemli və əlifba) olsa da kartoçkalar tamamilə səhv düzülüb. İnventar, ümumi uçot kitabı, gündəlik düzgün işlənilib. İllik, aylıq və rüblük iş planı, həmçinin, statistik hesabat, metodistin qeyd dəftəri var.

Kitabxanada "Milli mənəvi dəyərləmiz", "2016-cı il Multikultralizm ilidir", "Narkomaniyaya yox deyək", "Azərbaycanın milli qəhrəmanları", "Qaxım Turizm mərkəzi", "Qan yaddaşımız" adlı kitab sərgiləri və "Kəndimizin ziyalıları" adlı fotostend var. Kitabxanaya Mədəniyyət və "Şəlalə" (yerli qəzet) qəzetləri alınır.

34 saylı İbaxlı kənd kitabxana filialı Qax rayon Mədəniyyət və Turiz Şöbəsinin balansındadır, 1 otaqda yerləşir. Təxmini 560-dan çox əhaliyə xidmət

göstərilir. Filialın orta qeyri ixtisas təhsilli bir işçisi vardır. Müdir Əhmədova Vüsalə ali ixtisas təhsillidir. Kitabxanada oxucu sorğularının qeydiyyatı aparılmır. Kataloq sistemində nöqsanlar vardır. Kitab fondu KBT-yə uyğun düzülüb.

Kitab fondu 3426 nüsxədir. Onlardan latın əlifbası ilə 1155 nüsxə, kiril əlifbası ilə 1907 nüsxə, rus dilində 463 nüsxə, CD və xarici dillərdə olan ədəbiyyat yoxdur. Kitabxananın oxucularının sayı 2015-ci ilin məlumatına görə 320 nəfər, kitab verilişi 5500 nüsxə, kitabxanaya gəliş 1655 nəfərolmuşdur. 2016-cı ildə oxucu sayı 220 nəfər, kitabxanaya gəliş 1210 nəfər, kitab verilişi 1400 nüsxə təşkil edir. [31]

**Nəticə.** Qax MKS-də sənədlərə, hesabat materiallarına əsasən aparılan monitorinqin nəticəsinə uyğun olaraq bəzi nöqsanları, tövsiyə və təklifləri qeyd etmək olar.

– mərkəzi kitabxanada və filiallarda kitablara şifrə düzgün verilməmişdir;

– şifrələr yalnız kitabın formulyarına qeyd olunmuş, kitabların titul vərəqinə qeyd olunmamışdır;

– baş əlifba kataloqunun düzülüşündə daxili əlifba qaydasına əməl olunmamışdır;

– filiallarda rədd cavablarının qeydiyyatı aparılmamışdır;

– biblioqrafik təsvirlərin tərtibində, kartoçkaların daxili əlifba qaydası ilə düzülüşündə nöqsanlara yol verilmişdir;

– filiallarda diyarşünaslığın təbliği ilə bağlı kartotekalar yoxdur;

– filiallarda sərgilərin bədii-tərtibatı zəifdir, təbliğat xarakterli fotostendlər, sərgilər yoxdur;

– filiallarda fondun düzülüşü zamanı KBT-yə yetəri qədər əməl olunmamışdır;

– filiallarda kataloq sistemi zəifdir;

– filiallarda kartoteka sistemi yoxdur;

– Qaxrayon MKS-lərinin filiallarında kataloq və kartoteka sistemində daxili əlifba qaydası ilə düzülüş zamanı yol verilən nöqsanların aradan qaldırılması;

– filiallarda kataloq sisteminin təkmilləşdirilərək redaktə olunması;

– hər iki rayonda (filiallarda) kartoteka sisteminin yaradılması və kataloq və kartoteka qutularının üstünün yenidən kitabxana qaydasıilə yazılması;

– filiallarda fondların düzülüşündə KBT-yə əməl olunması;

– filiallarda diyarşünaslığın təbliğinə aid kartotekanın, sərgilərin, fotostendlərin, guşələrin daha dolğun hazırlanması;

– kənd kitabxana-filiallarına metodiki tövsiyələrin yerinə yetirilməsinə nəzarət edilməsi, filiallara təcrübi köməklik göstərmək üçün müntəzəm gedişlərin təşkili;

– metodika və biblioqrafiya şöbəsində növbəti seminar-məşğələlərdə filialların işini təhlil edərək (gedişlər əsasında) mövcud problemlərin müzakirə edilməsi;

– oxucularla operativ və daim ünsiyyətdə olmaq məqsədilə kitabxananın saytında "Onlayn məsləhətçi" xidmətinin aktivləşdirilməsi, oxucu formulyarlarının üstünə onların e-mail adreslərinin yazılması və bundan əks əlaqə vasitəsi kimi istifadə olunması;



– kütləvi tədbirlərin keçirilməsində yeni, müasir üsullarından istifadə edilməsi, saytda tədbirlə bağlı bildirişlərin yerləşdirilməsi, hər bir oxucunun elektron ünvanına bildirişlərin göndərilməsi;

– kitabın, eyni zamanda, kitabxananın təbliği ilə əlaqədar reklam çarxlarından istifadə olunması;

– oxuculara xidmət prosesində Milli Kitabxananın **(anl.az)** saytından istifadə etməklə məlumat bazalarından, kitabxananın nəşrlərindən istifadə etmək, elektron kataloqda və elektron kitabxanada axtarış aparmaq;

– kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi;

– oxucuların informasiyaya olan tələbatlarının ödənilməsinə yönəldilmiş sorğuların keçirilməsi və əldə edilmiş nəticələr əsasında fondların komplektləşdirilməsi;

– oxucu sorğularının qeydiyyatının aparılması.

Hər iki rayonda **ALİSA** proqramı, onun modulları haqqında, proqramdan istifadə qaydaları, eləcə də oxuculara xidmət prosesində Milli Kitabxananın **(anl.az)** saytından istifadə etməklə məlumat bazalarından, elektron resurslardan yararlanmaq, elektron kataloqda və elektron kitabxanada axtarış aparmaq, Milli Kitabxananın nəşrlərindən istifadə etməklə oxucuların informasiya təminatının operativ ödənilməsi kimi təklif və tövsiələrin yerinə yetirilməsi işin xeyrinə olardı.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**

**Azərbaycan dilində**

1. Azərbaycan Kitabxana Ensiklopediyası /Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi; M.F.Axundzadə adına Milli Kitabxana. Bakı, 2015, 632 s.

2. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan, 2007, 21 aprel.

3. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: Dövlət Proqramının həyata keçirilməsinə dair materiallar: biblioqrafik göstərici I bur. /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi., M.F.Axundov ad. Azərb Milli Kitabxanası; burax. haz. M.Vəliyeva, M.İbrahimova; red. G.Səfərəliyeva. I buraxılış. Bakı, 2007, 201 s.

4. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: Dövlət Proqramının həyata keçirilməsinə dair materiallar: biblioqrafik göstərici II bur. /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi., M. F. Axundov ad. Azərb Milli Kitabxanası; burax. haz. M. Vəliyeva, M. İbrahimova; red. G. Səfərəliyeva. Bakı, 2009, 345 s.

5. Azərbaycanın regionları /Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2011, 768s.

6. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) // Azərbaycan, 2004, 11 fevral.

7. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı "DövlətProqramı". Bakı: Nurlar, 2009, 184 s.

8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2017:statistik məcmuə /Azərb. Resp. Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2009,465 s.
9. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cüillərdə inkişafı üzrə DövlətProqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal, 2008, № 2, S.6-29.
10. Bayramova İ.Z. Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, 2011, №2, S.250-258.
11. Xələfova S.A. Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990).Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 159 s.
12. İsmayılov X. İ.Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi:1918-2000-ci illər. Bakı, 2000, 445 s.
13. İsmayılov X.İ.İsmayılov.N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bur.7. Bakı: Mütərcim, 2007, S.318-320.
14. İsmayılov X.İ., İsmayılov.N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bur.7. Bakı: Mütərcim, 2007, S.318-320.
15. İsmayılov X.İ.Kitabxana işinin təşkili və idarəedilməsi: Dərs vəsaiti. Bakı: "Nurlar", 2010, 328 s.
16. İsmayılov N.İ, Ağayeva X.T. Regionların sosial-iqtisadi inkişafının informasiya təminatı həyata keçirilir // Azərbaycan qəzeti, 2010,13 noyabr, s.6 .
17. İsmayılov N.İ. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşdirilməsi və istifadəsinin bəzi məsələləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. 1999, №1,S.94-99.
18. İsmayılov N.İ. Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatı:vəziyyəti, problemləri, perspektivləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübijurnal. 1998, №2, S. 81-88.
19. İsmayılov N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.2010,№1, S. 67-78.
20. Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği: metodik tövsiyələr /tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2015, 39 s.
21. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistikbülleten //Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, 88s.
22.Məhəmmədli D.H. Şəki-Zaqatala iqtisadi regionunda kitabxana mütəxəssislərinin təhsil səviyyəsi:Məqalə //Dil və ədəbiyyat:beynəlxalq elmi-nəzəri və praktiki jurnal. Bakı:BUN, 2018, №1(105), S.438-440.
23. Məhəmmədli D.H. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunda biblioqrafik fəaliyyətin təşkilinin bəzi məsələləri:Məqalə// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. Bakı:"Mütərcim", 2018, №1(40), S.26-40. (X.İ.İsmayılov, N.İ.İsmayılovla birlikdə)



24. Məhəmmədli D.H.Mürəkkəb polietnik şəraitdə Şəki-Zaqatala iqtisadi regionunda kitabxana-informasiya xidmətinin səciyyəvi xüsusiyyətləri:Məqalə //Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və praktiki jurnal.-B.: Mütərcim,2018.-№1,S.73-78.
25. Məhəmmədli D.H. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun biblioqrafik informasiya təminatının müasir vəziyyəti: Məqalə// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. Bakı: "Mütərcim",2018, №1 (40), S.45-55. ( X.İsmayılovla birlikdə)
26. Məhəmmədli D.H. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionu üzrə kitabxanaların informasiya və kommunikasiya texnologiyalarının tətbiqi vəziyyəti:Məqalə //Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və praktiki jurnal. Bakı: Mütərcim, 2018, №3, S.33-43.
***Rus dilində***
27. Исмаилов Н.И. Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики: этапы развития, состояние и пути совершенствования. Баку: Мутарджим, 2005,300 с.
28.Магаммедли Д.Г. Анализ состояния библиотечного обслуживания Шеки-Закаталского экономического регионаАзербайджанской Республики: Məqalə// Вектор Науки. Тольяттин, 2018, №2(33), С.17-21.
29.Магаммедли Д.Г Особенности-развития библиотечно-информационной инфраструктуры Шеки-Загатальского экономического региона Азербайджанской Республики на современном этапе: Məqalə //Гілея.-Кіев,2018, №2(129), S. 112-117.
30.Магаммедли Д.ГПроблемы информатизации библиотек в экономических регионах Азербайджана (на примере Шеки-Загатальского экономического региона): Tezis// Vнаучно-практическая конференция.-Одесса, 2018.-с.100-102.
**Hesabatlar**
31.Qax rayon MKS-in 2000-2018-ci il hesabatlar